**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ BEYNƏLXALQ ASPEKTLƏRİ (1993-2003)

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: – Tarix

İddiaçi: **Sevinc Akif qızı Qurbanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin ”Ümumi tarix” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, dosent
**Ədalət Qasım oğlu Qasımov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**İkirəm Kərim oğlu Ağasiyev**

tarix üzrə fəlsəfə doktoru
**Zaur İbrahimxəlil oğlu Məmmədov**

tarix üzrə fəlsəfə doktoru
**Ülkər Kərim qızı Məmmədzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED. 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ______________ tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: ______________ tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: ______________ tarix elmləri doktoru, professor
**Habil Nurkişi oğlu Məmmədov**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonlarından dünya güc mərkəzlərinin Azərbaycana olan maraqları, dünya dövlətləri ilə Azərbaycan arasında neft kontraktları ilə bağlı başlanmış danışıqların məqsəd və vəzifələri, onların mərhələləri, "Əsrin Müqaviləsi"nin hazırlanma və təsdiqi prosesinin həyata keçirildiyi gərgin ictimai şərait, neftin hasilatı, hasil olunmuş neftin dünya bazarlarına çıxarılması və bu əsasda dövlətlər arasında maraqların uzlaşdırılmasının beynəlxalq kontekstdən tədqiqi xüsusi aktuallıq kəsb edir. Qloballaşan dünyanın geosiyasi mənzərəsinə təsir göstərən mühüm amillərdən biri də zəngin enerji resursları üzərində nəzarətin təmin olunması və neft-qaz ehtiyatlarının təhlükəsiz marşrutlarla dünya bazarına çatdırılmasıdır. Azərbaycan Respublikasının beynəlxalq güclərin diqqət mərkəzinə düşməsi, onun istər Avropa, ABŞ, istərsə də region üçün xüsusi siyasi əhəmiyyət kəsb etməsi və bu kimi problemlərin tədqiqi elmi aktuallıq kəsb edir. Heydər Əliyev neft strategiyasını həyata keçirərkən milli və beynəlxalq maraqları nəzərə alan tarazlaşdırılmış siyasət yürüdürdü ki, bu gün bu siyasətin analizi və milli neft sənayesinin inkişafı uğrunda mübarizə tarixinin ümumiləşdirilməsi zərurəti meydana çıxmışdır.

Nəzərə almaq lazımdır ki, neft amili ilə bağlı problemlər artıq bir əsrdən çoxdur ki, regionallıqdan çıxmış, beynəlxalq-siyasi əhəmiyyətli məsələyə çevrilmişdir. Bu əsasda neft strategiyasının tədqiq edilməsi olduqca aktual mövzuya çevrilmişdir.

Problemin aktuallığı həm də Bakı-Novorossiysk və Bakı-Tbilisi-Supsa neft kəmərlərinin Qərbin enerjiyə getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi, xüsusən də birincinin geosiyasi baxımdan əlverişli olmaması ilə şərtlənirdi. Məhz həmin dövrdə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin gerçəkləşməsini əfsanə hesab edənlər onun reallıqdan tamamilə uzaq olduğunu bildirirdilər. *"Bizim Bakı-Ceyhandan başqa yolumuz yoxdur. Bu, bizə həm iqtisadi baxımdan faydalıdır, həm siyasi baxımdan, həm də ən mühümü müstəqilliyimizi möhkəmləndirmək üçün ən əsas amildir"*, - deyən Ulu öndər Heydər Əliyev gərgin diplomatik səylər hesabına həmin layihənin siyasi baxımdan alternativsiz olduğunu beynəlxalq miqyasda sübuta yetirdi

və müvafiq sazişin imzalanmasına nail oldu[1]. Bütün bunlar neft strategiyasının beynəlxalq aspektləri probleminə münasibətin mahiyyətini və inkişaf istiqamətlərini araşdırıb təhlil etməyə əsas verir.

Problemin aktuallığını şərtləndirən mühüm amillərdən biri də yeni neft strategiyasının Azərbaycanın siyasi müstəqilliyinin möhkəmlənməsindəki rolu ilə bağlıdır. Azərbaycan diplomatiyasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün neft amilini xarici siyasətin əsas vasitəsinə çevirməsi yaranmış geosiyasi reallığın obyektiv qiymətləndirilməsindən qaynaqlanırdı. Bu baxımdan, neft strategiyasının mövcud təhlükəsizlik və əməkdaşlıq çərçivəsində tədqiq edilməsi həm elmi-tarixi, həm də praktik siyasət baxımından aktualdır.

Tədqiqat işinin aktuallığını şərtləndirən digər mühüm amil Azərbaycanın neft strategiyasının təkcə region ölkələrinin deyil, bütövlükdə türk dünyası ölkələrinin inteqrasiyası, Şərq və Qərbin qarşılıqlı münasibətlər sistemində Azərbaycanın layiqli yerinin bərqərar edilməsi üçün də hesablanmasıdır. Hazırda ölkəmizin Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlığına, ortaq layihələrə nəzər salsaq, bu layihələrdə Heydər Əliyevin müəllifliyini qeyd edə bilərik.

Bakı-Ceyhan kəməri yeni regional enerji və nəqliyyat layihələrinə zəmin yaratdı. Bakı-Tbilisi-Ərzurum qaz xətti, Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə Azərbaycan-Türkiyə əlaqələrinə deyil, eləcə də Mərkəzi Asiya respublikalarının Xəzər və Azərbaycan üzərindən Türkiyəyə bağlanmasına, Avropa-Asiya nəqliyyat dəhlizinə tarixi töhfədir.

Heydər Əliyevin neft və kommunikasiya strategiyası yarandığı dövrdən Qərb, türk, rus və milli politoloji fikrin diqqət mərkəzində olmuşdur. Problem müxtəlif yönümlərdən araşdırılsa da, onun beynəlxalq aspektləri kompleks şəkildə tədqiq edilməmişdir. Məhz bununla əlaqədar problemə həsr olunmuş tədqiqatları üç qrupa bölmək olar ki, bunlar tədqiqatın əhatə dairəsi ilə bağlıdır: birincisi, Xəzər

[1]İlham Əliyev: Bizim Bakı-Ceyhandan başqa yolumuz yoxdur: Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin Türkiyənin "Nərgiz-TV" kanalına müsahibəsi // Xalq qəzeti. – 1999, 1 iyun. – s.4.

dənizinin neft ehtiyatlarının beynəlxalq münasibətlərdə yeri və əhəmiyyətini müəyyənləşdirən tədqiqatlar; ikincisi, Heydər Əliyevin neft strategiyasının mahiyyət və məzmununun araşdırılmasına həsr olunmuş əsərlər; üçüncüsü, neft strategiyasının Azərbaycanın regionda və beynəlxalq aləmdə imicinin müəyyənləşdirilməsi ilə bağlı tədqiqat işləri.

Probleme göstərilən aspektlərdən yanaşsaq, mövzunun işlənməsi baxımından Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin əsərləri mühüm əhəmiyyətə malikdir. Onun "Azərbaycanın Xəzər nefti" əsəri[2] Xəzər neftinin tarixinə həsr olunmuşdur. Əsərdə 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra onun reallaşması istiqamətində həyata keçirilən tədbirlər, qəbul olunan dövlət sənədləri, əldə olunmuş sazişlər və s. öz əksini tapmışdır.

Azərbaycanlı müəlliflərdən R.Mehdiyevin "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" əsərində[3] Azərbaycanın qloballaşan dünyadakı rolu və qarşılıqlı iqtisadi asılılıq nəzəriyyəsi araşdırılmışdır. Müəllifin"Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri" adlı əsərlərində son dərəcə əlverişli geosiyasi mövqeyə və nəhəng enerji resurslarına malik olan Azərbaycanın dünya və region dövlətləri arasında nüfuz dairələrinə bölünməsi uğrunda mübarizədə geosiyasi oyunlar meydanına çevrilməsindən bəhs edilir. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra onun həyata keçirməyə başladığı "balans siyasəti" nəticəsində bunlara son qoyulması kimi məsələlər ətraflı təhlil edilmişdir[4].

R.Mehdiyevin "Gələcəyin strategiyasını müəyyənləşdirərkən:

---

[2] Алиев, И. Каспийская нефть Азербайджана / И.Алиев. – Москва: Известия, – 2003. – 712 с.

[3] Mehdiyev, R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr: [2 cilddə] / R.Ə.Mehdiyev. – Bakı: XXI əsr – YNE, –2006, – c.2. – 672 s.

[4] Yenə onun. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, – 2001. – 276 s.; yenə onun Azərbaycan: qloballaşma dövrünün tələbləri / R.Ə.Mehdiyev. – Bakı: "XXI əsr-YNE", – 2005. – 463 s.

modernləşdirmə xətti" adlı konseptual əsəri[5] Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin seçdiyi inkişaf yolunun təməl prinsiplərinin müasir dövrün tələbləri baxımından elmi-nəzəri cəhətdən araşdırılmasına həsr olunmuşdur.

Milli politoloji fikirdə Ə.Həsənovun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" və "Azərbaycanın geosiyasəti" əsərləri[6] mühüm əhəmiyyət kəsb edir. Müəllif Azərbaycan Respublikasının xarici siyasətində neft strategiyasının rolu və yeri məsələlərinə toxunmuşdur. Eyni zamanda enerji təhlükəsizliyi kontekstində Xəzər neftinin rolu və regional siyasətə təsiri məsələləri ətraflı təhlil edilmişdir. Bu əsərlərdə müxtəlif güclərin maraqlarının kəsişmələri fonunda Azərbaycanın ikitərəfli və çoxtərəfli diplomatik fəaliyyəti araşdırılmışdır.

Tarixçi M.Qasımlının "Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)" və "Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)" əsərlərinin ilk bölmələrində regional və qlobal güclərin Azərbaycan nefti ilə əlaqəli strategiyaları təhlil edilir[7]. Azərbaycanın neft strategiyasını milli təhlükəsizlik kontekstində təhlil edən müəllif respublikamızın beynəlxalq münasibətlər sistemində yeri, Heydər Əliyevin xarici ölkələrə səfərləri, həmin səfərlərin gedişində enerji sahəsində əldə edilmiş razılaşmalar və digər mühüm məqamlar araşdırılmışdır.

Heydər Əliyevin neft və kommunikasiya diplomatiyasının enerji amili ilə əlaqələndirilməsi və neftin Azərbaycan Respublikasının xarici siyasətində kəsərli silaha çevrilməsi və s. məsələlər tədqiqatçılardan H.Babaoğlunun "Dünya siyasəti və beynəlxalq münasibətlər"

---

[5] Yenə onun. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti / R.Ə.Mehdiyev. – Bakı: Şərq-Qərb, – 2008. – 216 s.

[6] Həsənov, Ə.M. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M.Həsənov. – Bakı: Azərbaycan, – 2005. – 752 s.; yenə onun. Azərbaycanın Geosiyasəti / Ə.M.Həsənov. – Bakı: Zərdabi-LTD, – 2015. – 1048 s.

[7] Qasımlı, M.C. Azərbaycan Beynəlxalq Münasibətlər Sistemində (1991-1995-ci illər) / M.C.Qasımlı. – Bakı: Gənclik, –1996. – 450 s.; yenə onun. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissədə]/ – Bakı: Mütərcim, – 2015. – I hissə. – 647 s.

əsərində[8] elmi-nəzəri baxımdan araşdırılır və dəyərləndirilir.

Azərbaycanın xarici siyasətində neft strategiyasının əhəmiyyəti ilə bağlı məsələlər E.Nəsirovun "Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999)" və "Azərbaycan-ABŞ münasibətləri" əsərlərində araşdırılır[9]. E.Nəsibovun "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası" adlı monoqrafiyasında isə SSRİ-nin dağılmasından sonrakı proseslər, ABŞ-ın Cənubi Qafqaz bölgəsi uğrunda gedən mübarizədə iştirakı məsələləri və bu fonda Azərbaycanın xarici siyasəti tədqiq edilir[10].

Tədqiqatçılardan Ə.Mehdiyevin "Əsrin müqaviləsi-Azərbaycan neft strategiyasının təməl daşı" əsərində[11] müqavilənin imzalanmasını şərtləndirən amillər, Azərbaycan hökuməti ilə aparılan danışıqlar prosesinin mərhələləri araşdırılır. İştirakçı tərəflərin mövqelərində meydana gələn problemlər və onların Heydər Əliyev tərəfindən uzlaşdırılması və s. məsələlər tədqiqat işində sistemli şəkildə təhlil edilmişdir.

Heydər Əliyevin neft strategiyasının beynəlxalq aspektlərini öyrənmək baxımından Y.Mahmudovun tədqiqatları da əhəmiyyətlidir. "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" adlı monoqrafiyasında[12] Ümummilli liderin rolu və xidmətləri araşdırılmış, əksər bölmələrdə dünya dövlətləri ilə strateji əməkdaşlığın elmi-siyasi təhlili verilmişdir. "Heydər Əliyevin ideyalarının zəfər yürüşü"

---

[8] Babaoğlu, H. Dünya siyasəti və beynəlxalq münasibətlər / H.Babaoğlu. – Bakı: UniPrint, – 2014. – 676 s.

[9] Nəsirov, E.X. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999-cu illər) / – Bakı: Respublika Xatirə Kitab Evi, – 1999. – 104 s.; yenə onun. Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər) / E.X.Nəsirov. – Bakı: Qanun, – 1998. – 136 s.

[10] Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası / E.X.Nəsirov. – Bakı: Çıraq, – 2006. – 314 s.

[11] Mehdiyev, Ə.B. "Əsrin Müqaviləsi": Azərbaycan neft strategiyasının təməl daşı / Ə.B.Mehdiyev. – Bakı: Turxan, – 2014. – 245 s.

[12] Mahmudov, Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti / – Y.M.Mahmudov. – Bakı: Təhsil, – 2002. – 322 s.

əsərində[13] isə Y.Mahmudov müasir Azərbaycanın yaradıcısı olan Heydər Əliyevin fədakar ömür yolunu, tarixi xidmətlərini tədqiq etmişdir.

Tədqiqatçılardan Ş.Səlimovun tədqiqat işi bəhs edilən dövrə birbaşa aid olmasa da, beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsi, İkinci dünya müharibəsi dövründə böyük dövlətlərin Azərbaycanla bağlı maraqları kimi məsələlər araşdırılmışdır[14].

İ.Hüseynovanın uzun illər elmi yaradıcılığının bəhrəsi olan "Müstəqil Azərbaycan dövlətinin qurucusu" adlı zəngin arxiv materialları əsasında qələmə alınan tədqiqatında[15] müstəqil Azərbaycan dövlətinin qurucusu, dövlət xadimi Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin əsas aspekt və mərhələləri işıqlandırılmışdır.

M.Əhmədovun "Azərbaycan: yeni neft erası və beynəlxalq siyasət" adlı monoqrafiyasında[16] ilk neft müqavilələrinin bağlanması, neft yataqlarının tədqiqi və istifadəyə verilməsinin təmin edilməsi məsələlərinə toxunulmuşdur. Azərbaycanın iqtisadi yüksəlişinin neft strategiyası ilə bağlılığı və regional təhlükəsizlikdə bu amilin əsaslı olduğu konkret fakt və sənədlərdən istifadə olunmaqla təhlil edilmişdir.

C.Bəhrəmovun əsərləri[17] Azərbaycan neftinin tarixi proseslər

---

[13] Yenə onun. Heydər Əliyevin ideyalarının zəfər yürüşü / Y.M.Mahmudov. – Bakı: Təhsil, – 2011. – 547 s.

[14] Səlimov, Ş.D. Beynəlxalq münasibətlərdə Azərbaycan neft məsələsi: / tarix üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 2005, – 301 s.

[15] Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu / – İ.M.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 472 s.

[16] Əhmədov, M.B. Azərbaycan: Yeni neft erası və beynəlxalq siyasət/ M.B.Əhmədov. – Bakı: Elm, – 1997. – 124 s.

[17] Bəhrəmov, C.Ə. Azərbaycan Xəzər nefti XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlində / C.Ə.Bəhrəmov. – Bakı: Elm, – 2008. ; yenə onun. Azərbaycan nefti / C.Ə.Bəhrəmov. – Bakı: 2010, – 352 s.; yenə onun. Azərbaycan Respublikasının neft siyasəti: [iki cilddə] / C.Ə.Bəhrəmov. – Bakı: Turxan NBP, – c.2. – 2013. – 704 s.; yenə onun. Azərbaycan Respublikasının neft strategiyası və Rusiya Federasiyasının Cənubi Qafqaz siyasəti (1994-2004) // – Bakı: Qərb Universiteti Elmi Xəbərləri, – 2013, № 2. – s.3-14; yenə onun. Xəzər, neft və onların Azərbaycanın siyasi tarixində rolu // Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfrans. – Bakı, – 7 iyun – 1996, – s.68-75.

çərçivəsində araşdırılmasına və problemin beynəlxalq-siyasi müstəvidə yerinin açılmasına imkan verir. Onun əsərləri Azərbaycan Respublikasının neft strategiyasının inkişaf tarixini izləmək və siyasi baxımdan tədqiq etmək üçün fakt və sənədlərlə zəngindir.

Azərbaycanın neft strategiyasını ABŞ-ın nüfuzlu Nyu -York Tayms qəzetinin materialları əsasında araşdıran A.Bəşirli Vaşinqtonun Xəzər siyasətinin incəliklərini açıb göstərməklə yanaşı, Cənubi Qafqaz-Mərkəzi Asiya regionlarının dünya siyasətində yerinə də aydınlıq gətirməyə nail olmuşdur. Müəllif regional və regiondankənar aktorların regiona gətirdikləri yeni geosiyasi oyun qaydalarının mahiyyətini araşdırır və ümumiləşdirmələr aparır.[18]

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşri olan yeddi cildlik "Azərbaycan tarixi" əsərinin VII cildi neft strategiyası ilə bağlı fakt, sənəd və materialların əks olunduğu qaynaqlardan biridir. Əsərin elmi araşdırma kimi müstəqillik dövründən sonra Azərbaycan Respublikasının neft strategiyasını və digər siyasi-iqtisadi prosesləri öyrənmək üçün əhəmiyyəti böyükdür.[19]

Tədqiqatda qarşıya qoyulan məqsədə çatmaq, problemləri ciddi və daha müqayisəli şəkildə araşdırmaq üçün Qərb və Rusiya müəlliflərinin əsərlərindən də istifadə edilmişdir. Bu mənada Rusiyalı politoloqlardan A.Duqinin "Geosiyasətin əsasları"[20] və N.Nartovun "Geosiyasət" [21] adlı əsərləri də mövzunu öyrənmək baxımından əhəmiyyətlidir.

Rusiyanın Xəzər regionunda enerji siyasəti və regionun enerji resurslarının bölünməsində iştirakı, Xəzər neftinin nəqli ilə bağlı geosiyasi problemlərin həlli məsələsi S.S.Jilkov, İ.S.Zonn və A.M.Uşkovun "Xəzər regionunun geosiyasəti" adlı əsərində[22] tədqiq

---

[18] Bəşirli, A.Ə. Azad mətbuatın çərçivəsində. "The New York Times" Azərbaycandan. Nə? Nə zaman? Necə? / A.Ə.Bəşirli. – Bakı: Şərq-Qərb, – 2007, –224 s.

[19] Azərbaycan tarixi: [7 clddə] / – Bakı: Elm, – c.7. – 2003. – 760 s.

[20] Дугин, А.Г. Основы геополитики. Геополитические будущие России // А.Г.Дугин. – Москва: Арктогея-Центр. – 2000. – 928 с.

[21] Нартов, Н.А. Геополитика / Н.А.Нартов. – Москва: изд – 1999. – 523 с.

[22] Жильцов, С.С. Геополитика Каспийского региона / С.С.Жильцов, И.С.Зонн, А.М.Ушков. – Москва: Международные отношения. – 2003. – 280 с.

edilmişdir. Lakin onu da qeyd etmək lazımdır ki, bəzi Rusiya müəlliflərinin əsərlərində Azərbaycanın neft strategiyasına qərəzli yanaşma və BTC ilə bağlı inamsızlığın təbliği özünü açıq şəkildə göstərir. Müəlliflər BTC-nin reallaşa biləcəyinə inanmır, bunu arzuolunmaz sayırdılar.

Lakin Cənubi Qafqaz-Mərkəzi Asiya siyasəti kontekstində Rusiya, ABŞ, İran, Türkiyə və s. dövlətlərin Xəzərin enerji resurslarının bölüşdürülməsi prosesində iştirakının elmi-politoloji aspektləri Rusiya müəlliflərinin əsərlərində ayrıca yer almışdır. Bu baxımdan dissertasiyada V.D.Pisarevin, D.B.Malışevanın, S.Markedonovun, S.İ.Çernyavskinin və s. müəlliflərin tədqiqatlarında[23] yer almış sənəd və materiallardan yeri gəldikcə analiz-sintez prosesində istifadə olunmuş və müqayisələr aparılmışdır.

Məşhur ABŞ politoloqu H.Kissincer "Diplomatiya" əsərində[24] Xəzərdə Qərb-Rusiya geosiyasi maraqlarının toqquşması problemini araşdırmışdır. Müəllif qeyd edir ki, Rusiya hələ də öz imperiya ambissiyaları ilə yaşayır. Qonşu dövlətlərlə geosiyasi məsələləri güc yolu ilə, onların ərazisinə müdaxilə etməklə həll etməyi düşünür. Tədqiqat işində vurğulanır ki, Rusiya getdikcə müasir dünyanın tələbləri ilə razılaşmaq və imperiya ambissiyalarından imtina etmək məcburiyyətində qalacaqdır.

ABŞ politoloqlarından Z.Bjezinski "Böyük şahmat taxtası" əsərində[25] Azərbaycanı postsovet məkanının üç dayaq nöqtələrindən

---

[23] Писарев, В.Д. Политика США в Каспийском регионе. Европа и Россия: проблема южного направления. Средизимноморье – Черноморье – Каспий / – Москва: – 1999, – 380.; Малышева, Д.Б. Турция и Иран в борьбе за влияние в Закавказье // – Москва: Россия и Закавказье: поиски новой модели общения и развития в изменяющемся мире. – 1999, – № 1(13). – с.116-121; Маркедонов, С. Азербайджан, который нужен всем: [Электронный ресурс]/ – май 3, 2006. URL: http://www.politcom.ru/article.php?id=2655; Чернявский, С.И. Новый путь Азербайджана / С.И.Чернявский. – Москва: Азер-Медиа, Книга и бизнес. – 2002. – 352 с.

[24] Киссинджер, Г. Дипломатия / Г.Киссинджер. – Москва: Ладомир. – 1997. – с.742-743

[25] Бжезинский, З. Великая шахматная доска. Господство Америкии ее геостратегические императивы / З.Бжезинский. – Москва: Международные отношения, – 1998. – с.146.

biri kimi qiymətləndirmişdir. Müəllif göstərirdi ki, Azərbaycanın mövqeyinin güclənməsi gələcəkdə enerji resurslarının sərbəst hasilatı və alternativ marşrutlarla Qərbə çıxarılması istiqamətində transmilli layihələrin reallaşmasını təmin edəcəkdir.

Redaktorları S.Frederik Starr və E.Kornell olan Mərkəzi Asiya - Qafqaz İnstitutu İpək Yolu araşdırmaları proqramı çərçivəsində hazırlanan "BTC boru kəməri: Qərbə açılan neft pəncərəsi" kitabında[26] BTC-nin çəkilməsi ətrafında gedən gərgin mübarizə və onun Heydər Əliyev tərəfindən uğurla başa çatdırılması məsələləri araşdırılmış, BTC-nin Avropanın enerji təhlükəsizliyində oynaya biləcəyi rol hərtərəfli təhlil edilmişdir. Araşdırmanın nəticələrindən tədqiqat işində müqayisə üçün istifadə edilmişdir.

Tədqiq etdiyimiz mövzuya dair məlumatlar eyni zamanda Türkiyəli müəlliflərin də araşdırmalarında da öz əksini tapmişdır. Bu mənada Ali Faik Demirin "Türk Dış politikasının perspektifinden Güney Kafkasya"[27], Araz Osman Nurinin "Azerbaycanın Hazar ekonomisi ve stratejisi"[28], Faruk Aslanın "Hazarın Kurtlar vadisi: petrol imperatorluğundaki güç savaşları"[29], Kara Vehbinin "Petrole dayalı stratejiler və uluslararası ilişkilerde petrolun önemi" əsərlərini[30] qeyd etmək yerinə düşərdi. Əhməd Davudoğlunun "Strateji dərinlik" əsəri[31] regionda gedən geosiyasi mübarizənin Türkiyənin nümunəsində öyrənilməsinə imkan verir. Əsərdə Türkiyənin xarici siyasət prioritetləri və regionda gedən geosiyasi rəqabətdə üstünlüyünün əsasları elmi-nəzəri baxımdan təhlil edilir.

Türk müəlliflərindən O.Kocamanın Cənubi Qafqazda Türkiyə və

---

[26] Bakı-Tbilisi-Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi / – Bakı: Mərkəzi Asiya-Qafqaz İnstitutu-İpək Yolu Araşdırmalar proqramı, 2006. – 174 s.

[27] Demir, A.F. Türk dış politikası perspektifinden Güney Kafkasya / A.F.Demir. – İstanbul: Baglam, – 2003. – 358 s.

[28] Aras, O.N. Azerbeycan Hazar ekonomi ve stratejisi / O.N.Aras. – İstanbul: Dergi yayınları, – 2001. – 299 s.

[29] Aslan, F. Hazarın Kurtlar vadisi. Petrol imperatorluğundakı güç savaşları / F.Aslan. – İstanbul, – 2005. – 448 s.

[30] Kara, V. Petrole Dayalı stratejiler və uluslararası ilişkilerde petrolun önemi / V.Kara. – İstanbul, – 1997. – 384 s.

[31] Davutoğlu, A. Strateji derinlik / A.Davutoğlu. – İstanbul: Küre yayınları, – 2001. – 584 s.

Rusiyanın maraqları və siyasətinin araşdırılmasına həsr olunmuş əsərində[32] Xəzər hövzəsinin enerji resurslarının işlədilməsi ilə bağlı Azərbaycan Prezidenti Heydər Əliyevin həyata keçirdiyi enerji siyasəti təhlil edilir.

Tədqiqat prosesində toplanmış materialların təhlili göstərir ki, Heydər Əliyevin neft strategiyasının beynəlxalq aspektlərinin öyrənilməsi və neft amilinin ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə təsirinin kompleks şəkildə təhlil edilməsinə ciddi ehtiyac vardır.

Tədqiqat prosesində mühüm mənbələr kimi Azərbaycan Respublikasının prezidentləri Heydər Əliyev və İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı etdiyi məruzə, nitq və çıxışların toplandığı külliyyatlardan, çoxcildlik sənədlər toplusunun müxtəlif cildlərindən[33] götürülmüş sənəd və materiallar problemin ətraflı şəkildə araşdırılması üçün istifadə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan nefti dünya siyasətində" adlı kitabın IV və V cildləri[34] tədqiqat işində bəhs edilən dövrdə olan hadisələri araşdırmaq üçün vacib mənbə hesab edilir.

Mövzunun tədqiq edilməsində Heydər Əliyevin müxtəlif səciyyəli görüşlərdəki nitqləri xüsusi əhəmiyyət kəsb etmişdir. Mənbəşünaslıq baxımdan "Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə" adlı 2 cildlik mənbə[35] fərqlənir. Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə çatdıran, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla ədalətli həllinə üstünlük verən Heydər Əliyev Azərbaycan neft strategiyasını Azərbaycanın

---

[32] Коджаман, О. Южный Кавказ в политике Турции и России в постсоветский период / О.Коджаман. – Москва: Русская панорама. – 2004. – 296 с.

[33] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə]/ H.Əliyev. – Bakı: Azərnəşr, 1997-2012.

[34] Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində: [5 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, – c .4. – 1997. – 480 s.; Əliyev, İ.H. Azərbaycan nefti dünya siyasətində: [5 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, – c.5. – 1997. – 327 s.

[35] Heydər Əliyevin neft strategiyası: Azərbaycan xalqının rifahı naminə: [2 cilddə] / – Bakı: Azərbaycan Respublikası prezidentinin Katibliyi. – 2001. – c.1. – 491 s.; Heydər Əliyevin neft strategiyası:Azərbaycan xalqının rifahı naminə: [2 cilddə] / – Bakı: Azərbaycan Respublikası prezidentinin Katibliyi. – 2001. – c.2. – 467 s.

ərazi bütövlüyü ilə bağlayırdı. Mənbədə Heydər Əliyevin 1993-2003-cü illərdə xarici ölkələrin dövlət və hökumət xadimləri, neft şirkətlərinin başçıları, siyasi dairələrin nümayəndələri ilə keçirdiyi 350-dən çox görüş və tədbirlər öz əksini tapmışdır.

Eyni zamanda mənbəşünaslıq baxımından AMEA Tarix İnstitutunun elmi arxivinin[36] və Azərbaycan Respublikası Milli Məclisinin arxiv sənədləri[37] mühüm əhəmiyyətə malikdir.

Tədqiq olunan problemlə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarının əks olunduğu "Azərbaycanın statistik göstəriciləri" adlı məcmuələri[38] , Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Dövlət Neft Fondunun beynəlxalq maliyyə hesabatları standartlarına uyğun hazırlanmış maliyyə hesabatları və kollegiya materialları qarşıya qoyulmuş problemin araşdırılmasına yardım etmişdir.[39]

**Tədqiqat işinin məqsəd və vəzifələri:** Tədqiqat işinin başlıca məqsədi kimi Heydər Əliyevin neft strategiyasının beynəlxalq aspektlərinin araşdırılması seçilmişdir və bu məqsədə nail olmaq üçün konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

---

[36] Avrasiya nəqliyyat dəhlizinin yaradılması haqqında saziş// AMEA Tarix İnstitunun Elmi Arxivi, Fond № 1, siyahı №19, iş № 8961, vərəq – 75.

[37] "Abşeron" , "Naxçıvan" və "Oğuz" strukturlarının birgə işlənməsi haqqında saziş // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, Fond № 2941, siyahı № 122, iş № 494, vərəq - 2-82; ABŞ-ın "EKSON" şirkəti ilə ARDNŞ arasında "Naxçıvan" yatağının birgə işlənməsi barədə saziş // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, Fond № 2941, siyahı № 122, iş № 495, vərəq – 6-101; "ARDNŞ" ilə ABŞ-ın "MONKRİF OİL" və Türkiyənin "PETOİL" şirkətləri arasında "Mişovdağ" və "Kəlamətdin" yataqlarında hasilatın pay bölgüsünə dair saziş// Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Fond № 2941, siyahı № 122, iş № 264, vərəq – 37 və s.

[38] Azərbaycanın statistik göstəriciləri / – Bakı: Səda nəşriyyatı, – 2010. – 698 s.; Müstəqil Azərbaycan – 10 il. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi / – Bakı: Səda, – 2001. – 700 s.; Müstəqil Azərbaycan – 20. Azərbaycan Dövlət Statistika Komitəsi / – Bakı: Səda – 2011. – 640 s.

[39] ARDNF illik hesabatı - 2003 / – Bakı: Azərbaycan Respublikası Dövlət Neft fondu. – 2004. – 36 s.; ARDNF illik hesabatı - 2006: [Elektron resurs] / URL: http: // www. oilfund. az/ download/OilfundAz_2006.pdf.; ARDNŞ ilə ABƏŞ arasında imzalanmış protokol // Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Arxivinin (ARDNŞA) Kollegiyanın materialları, 2001-ci il, vərəq – 16-17.

-SSRİ-nin dağılması ilə beynəlxalq aləmdə və Azərbaycanda baş verən siyasi-iqtisadi dəyişikliklər prosesi və yeni dünya düzəninin formalaşması, bu fonda dünyanın qlobal və regional güclərinin ölkənin enerji resursları ilə bağlı geosiyası maraqlarını müqayisəli şəkildə araşdırmaq;

- Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət strategiyasında neftin mühüm siyasi amil kimi çıxış etməsini, neft strategiyasını Azərbaycan diplomatiyasının xüsusi bir mərhələsi və nailiyyəti kimi təhlil etmək;-"Əsrin müqaviləsi" sazişinin Azərbaycanın beynəlxalq aləmdə geosiyasi əhəmiyyətinin artmasına təsir məsələlərini elmi təhlillər süzgəcindən keçirtmək;

-Azərbaycanın Xəzər neftinin dünya bazarlarına nəqli məsələlərini araşdırmaq və bununla əlaqədar regionda geosiyasi fəallığın artmasının mahiyyətini təhlil etmək;

-BTC layihəsinin digər variantlarla müqayisədə üstünlüklərini üzə çıxartmaq və onun regionun geosiyasi vəziyyətinə təsiri məsələlərini araşdırmaq;

-Tədqiq edilən dövr ərzində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yeni neft strategiyasının təsiri məsələsini araşdırmaq;

-Heydər Əliyevin neft strategiyasının Xəzərin hüquqi statusu probleminin həlli istiqamətində rolunu müəyyənləşdirilmək;

-Neft strategiyasının Azərbaycanın dünya birliyinə inteqrasiyasında başlıca amil olduğunu göstərmək və bu əsasda baş verən keyfiyyət dəyişikliklərinin təhlilini vermək;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti 1993-2003-cü illərdə Heydər Əliyevin neft strategiyasının beynəlxalq aspektləridir. Predmeti isə araşdırılan dövrdə yeni neft strategiyası çərçivəsində, Azərbaycanın region və beynəlxalq güclərlə müxtəlif sferalarda əməkdaşlığının öyrənilməsi və baş verən siyasi proseslərə münasibətidir.

**Tədqiqatın metodları.** Elmi tədqiqat işində tarixşünaslıq və siyasətşünaslıqda tətbiq edilən ictimai elmlərin metodlarından istifadə olunmuşdur. Dissertasiya işində konseptuallıq, obyektivlik, tarixilik prinsiplərinə əsaslanan müqayisəli təhlil və sintez metodları tətbiq edilmiş, ümumiləşdirilmələr aparılmışdır. Tədqiqatın gedişində istifadə olunan digər metod hadisələrə analitik yanaşma metodudur. Nəzərə

alsaq ki, apardığımız tədqiqatda mənbə rolunu əsasən rəsmi sənədlər və xronikalar təşkil edir, onda qeyd etdiyimiz bu metodun əhəmiyyəti bir daha təsdiqlənmiş olar. Dissertasiyada həmçinin deskriptiv metodlardan istifadə edilərək proqnozlar verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

-Azərbaycanın neft resursları ilə bağlı dünyanın güc mərkəzlərinin maraqlarının təhlili göstərdi ki, "yeni böyük oyun" kimi adlandırılan beynəlxalq rəqabətin arxa planında enerji resurslarının istismarı və nəqli ilə əlaqədar mənfəət mübarizəsi durur.

-Neft amili Heydər Əliyevin tarazlaşdırılmış xarici siyasət strategiyası əsasında dövlətçiliyi möhkəmləndirən mühüm amilə çevrilmişdir. İmzalanan neft müqavilələrində ABŞ və Avropa ölkələrinin maraqları nəzərə alındığı kimi, region ölkələri olan Rusiya və İranın maraqları da diqqətə alınmışdır.

- Neft Azərbaycanın xarici siyasətində elə kəsərli silaha çevrildi ki, onun gücü ilə işğalçı Ermənistan özü regiondan təcrid edilmiş və beynəlxalq qurumların regionda reallaşdırdığı bütün enerji və loqistika layihələrindən kənarda qalmışdır.

-Azərbaycan öz neftini xarici siyasətində lobbi vasitəsi kimi istifadə etməsi nəticəsində Azərbaycanın əleyhinə istifadə olunan "erməni kartı"na qarşı neft strategiyasını formalaşdırmış və uğurla tətbiq etmişdir.

-"Əsrin müqaviləsi"nin imzalanması dünyanın 16 dövlətinə məxsus 36 aparıcı şirkətləri ilə 34 yeni neft müqaviləsinin imzalanmasına yol açmışdır. Eyni zamanda, "Əsrin müqaviləsi" 2012-ci ildən start götürmüş və dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin (Trans-Anadolu kəməri) və 2013-cü ildə imzalanmış "Şahdəniz-2" yatağı üzrə müqaviləyə əsasən Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət edən TAP (Trans-Adriatik qaz boru kəməri) layihəsinin reallaşması üçün zəmin yaratdı.

- Qərb kapitalının Azərbaycana axını ABŞ və Avropa dövlətlərinin regionun təhlükəsizliyin təmin edilməsi məsələsində fəal mövqe nümayiş etdirməsinə gətirib çıxarmışdır.

- BTC-nin fəaliyyətə başlaması ilə Rusiyanın Xəzər hövzəsi və Cənubi Qafqaz üzərindəki geosiyasi və geoiqtisadi təsiri, dəhliz və

transmilli neft-qaz ixracı marşrutları üzərindəki inhisarı nə qədər zəifləmişdisə, Türkiyənin və Qərbin təsiri bir o qədər güclənmişdir.

- Xəzəryanı ölkələrin əməkdaşlığını zəruri edən problemlərin təhlili göstərdi ki, Xəzərin hüquqi statusu problemi təkcə hüquqi qərar qəbul edlimısi yolu ilə deyil, eyni zamanda sahilyanı dövlətlərin razılaşdırılmış siyasi iradəsi ilə, iki və çoxtərəfli müqavilələr praktikası əsasında mərhələli həllini tapacaqdır.

- Neft strategiyasının reallaşması nəticəsində Azərbaycan Cənubi Qafqaz nəqliyyat dəhlizinin üzərindəki "açar ölkə" kimi bu magistralın inkişafında, İNOQEYT, TRASEKA və Böyük İpək yolu layihələrinin gerçəkləşməsində mühüm rol oynamağa başlamışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada son illərdə yazılmış tədqiqat, qaynaq və KİV materialları diqqətlə öyrənilərək təhlil edilmiş və aşağıdakı yeniliklər əldə olunmuşdur: problem kompleks şəkildə elmi tədqiqat işi kimi araşdırılmışdır; elmi dövriyyəyə çoxsaylı sənəd, fakt və materiallar gətirilmişdir; problemlərin həlli prosesi beynəlxalq aspektdən araşdırılmışdır; qlobal və regional güclərin (Rusiya, ABŞ, İran, Türkiyə, Aİ) Cənubi Qafqaz regionu, xüsusilə Azərbaycan ilə əlaqəli strategiyaları müqayisəli şəkildə təhlil edilmişdir; müxtəlif məzmunlu mənbələrin toplanması və hərtərəfli təhlili əsasında Heydər Əliyevin balanslaşdırılmış xarici siyasətində neft amilinin rolu təhlil edilmişdir; "Əsrin müqaviləsi"nin imzalanması və həyata keçirilməsi ilə bağlı ABŞ, Rusiya, İran, Türkiyə və digər region dövlətlərinin mövqeləri araşdırılır və bu siyasətdəki dəyişikliklərin mərhələləri və onların mahiyyəti təhlil edilir; yeni neft strategiyasında regional tarazlığın qorunması siyasəti təhlil edilmişdir; neftin nəqli ilə bağlı geosiyasi fəallığın artması, boru kəmərlərinin çəkilməsi ətrafında dövlətlər arasında ciddi müzakirə doğuran problemlərin həllinə dair konsepsiyalar və mülahizələr öyrənilmiş, müqayisəli təhlil edilmiş və bu aspektdə dövlətlərarası münasibətlərin inkişafına təkan verən amillərin əhəmiyyətinə xüsusi diqqət yetirilmişdir; BTC layihəsinin digər variantlarla müqayisəli təhlili verilmiş, BTC-nin əsas üstünlükləri üzə çıxarılmış, onun nəinki region dövlətlərinin, eləcə də Avropanın enerji təhlükəsizliyinə və Türk dünyasında inteqrasiya proseslərinin gedişinə və regionun geosiyasi vəziyyətinə təsiri araşdırılmışdır; yeni neft strategiyasının Azərbaycanın iqtisadi qüdrətinə görə bütün

dünyada Cənubi Qafqaz regionunun şəriksiz lideri kimi qəbul olunmasına səbəb olduğu əsaslandırılmışdır; Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeni neft strategiyasının rolu düzgün qiymətləndirilmişdir; Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsində yeni neft strategiyasının rolu təhlil edilmişdir; Azərbaycanın beynəlxalq aləmə inteqrasiya olunmasında neft amilinin rolu əsaslı dəlillərlə sübuta yetirilmiş, Heydər Əliyevin neft strategiyasının XXI əsrin dünya siyasətinə təsiri araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin materiallarını müasir tarixin bəzi problemləri - dünyanın geosiyasəti, Xəzəryanı dövlətlərin xarici siyasəti, ABŞ-ın, Rusiyanın, Türkiyənin və İranın Cənubi Qafqaz siyasəti üzrə araşdırmalar aparan tədqiqatçılar üçün əhəmiyyətli hesab etmək olar. Tədqiqatın materialları və əldə olunmuş nəticələrindən habelə enerji diplomatiyası və regional təhlükəsizlik istiqamətində aparılan araşdırmalarda, Azərbaycanda və regionda fəaliyyət göstərən strateji tədqiqat mərkəzlərində və beynəlxalq təşkilatların fəaliyyətində istifadə edilə bilər. Tədqiqat zamanı əldə edilmiş elmi nəticələrdən müxtəlif ümumiləşdirici elmi əsərlərin, proqram, dərs vəsaiti və dərsliklərin yazılmasında da istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmununu əhatə edən müddəalar müəllif tərəfindən Azərbaycan, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstanda çap olunmuş məqalələrində, həmçinin beynəlxalq və respublika səviyyəli konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın strukturu.** Giriş, 3 fəsil, 9 yarımfəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi (ədəbiyyat və ixtisarların siyahısı istisna olmaqla) 284 min 023 işarədən ibarətdir. Giriş –40484 işarə, I Fəsil – 62380 işarə, II Fəsil – 97693 işarə, III Fəsil – 70988 işarə, Nəticə – 12478 işarə.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, problemin işlənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar və nəzəri-praktiki əhəmiyyəti göstərilmiş, elmi yeniliyi verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Azərbaycanın enerji resurslarına artan beynəlxalq marağın mahiyyəti"** adlanır. Fəsil üç yarımfəsilə bölünmüşdür. **"Xəzər dənizinin neft ehtiyatları dünyanın güc mərkəzlərinin geosiyasi maraqlarında"** adlanan birinci yarımfəsildə dünyanın güc mərkəzlərinin Xəzər hövzəsi regionundakı maraqlarını şərtləndirən əsas amillər verilmiş və əsaslandırılmışdır. Region dünyanın ən zəngin karbohidrogen ehtiyatlarına malik bölgələrindən biridir. Məhz bu faktor bölgənin ümumi geosiyasi və geoiqtisadi məzmunu, dünya ölkələrinin bölgəyə can atması və s. kimi transmilli proseslərlə yanaşı, həm də Xəzərətrafı ölkələrinin bir-biri ilə regional münasibətlərinə ciddi təsir göstərmiş və göstərməkdədir. Geoiqtisadi və geosiyasi parametrlər üzrə qiymətləndirmə aparsaq, qeyd etmək olar ki, burada gedən rəqabətin başlıca hədəfi Xəzər hövzəsinin enerji ehtiyatlarına yiyələnməkdir. Hövzənin enerji resurslarının hasilatı və dünya bazarlarına çıxarılmasında iştirak, bölgənin enerji ixracı marşrutlarının seçiminə təsir etmək, onların fəaliyyətinə nəzarət də bu hədəflər arasındadır.

Sovet İttifaqının dağılmasından sonra bir müddət nisbi geosiyasi boşluğun yaranmasına baxmayaraq, bölgənin beynəlxalq güclər üçün xüsusi əhəmiyyəti bu yarımfəsildə əsaslandırılır. Xəzər - Qara dəniz hövzəsi və Cənubi Qafqaz regionunun transkontinental enerji, nəqliyyat - kommunikasiya əlaqələndiricisi kimi çıxış etməsi vurğulanır. Qeyd edilir ki, Rusiya Federasiyası, ABŞ, İran, Türkiyə və Avropa İttifaqı beynəlxalq siyasi maraqlarını təmin etmək üçün özünəməxsus siyasət həyata keçirməkdədirlər. Belə ki, bu dövlətlər Azərbaycanla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə ciddi maraq nümayiş etdirirlər.

Azərbaycanın geosiyasi mövqeyi və neft resursları ilə bağlı dünyanın güc mərkəzlərinin maraqlarının təhlili nəticəsində müəyyən olunur ki, birincisi, burada əsas mübarizə neft-qaz ehtiyatlarına sahib olmaq və bu sahədə üstünlük qazanmaq uğrunda gedir; ikincisi, Cənubi Qafqazın Böyük İpək yolunun üzərində yerləşməsi onun tarixi Şərq-Qərb əlaqələrinin bərpa edilməsində mühüm rol oynamasına səbəb olur; üçüncüsü, Azərbaycan Xəzər hövzəsinin neft-qaz ehtiyatlarının ixracında əsas tranzit ölkəyə çevrilir ki, bu da uzaq perspektivlərdə regiona sülh, sabitlik, təhlükəsizlik və zənginlik vəd edir.

Birinci fəslin "**Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət strategiyasında neft amilinin əhəmiyyəti**" adlanan ikinci yarımfəsilində neft strategiyasının məzmunca həyati əhəmiyyətli və bir neçə onillik üçün nəzərdə tutulmuş siyasət olduğu qeyd edilir. Eyni zamanda onun həyata keçirilməsi üçün kompleks xarici siyasət konsepsiyasının tələb olunması vurğulanır.

Qeyd edilən yarımfəsildə göstərilir ki, uzun illərin siyasi təcrübəsinə arxalanan Heydər Əliyev ölkənin beynəlxalq münasibətlərində neft faktorunun nəzərə alınmasının vacibliyini yaxşı bilirdi. Nəticə olaraq neft amili Heydər Əliyevin müəyyən etdiyi çoxqütblü və tarazlaşdırılmış xarici siyasət strategiyası əsasında dövlətçiliyimizi möhkəmləndirən ciddi amilə çevrildi. Bütün bunlarla yanaşı, ikinci yarımfəsildə göstərilir ki, Azərbaycan xalqının mənafeyi əsasında müəyyən olunan yeni xarici siyasət strategiyası diplomatiyanın təməl prinsiplərinə söykənir. Həmçinin bu yarımfəsildə qonşu dövlətlərlə münasibətlərin normallaşmasından, xarici siyasətin coğrafiyasının genişlənməsindən və "Əsrin müqaviləsi"nin timsalında uğurlu enerji siyasətinin həyata keçirilməsinə nail olunmasından danışılır. **"Əsrin müqaviləsi"nin Azərbaycanın beynəlxalq aləmdə geosiyasi mövqelərinin möhkəmlənməsində rolu"** adlanan üçüncü yarımfəsildə qeyd edilir ki, "Əsrin müqaviləsi"nin imzalanması və reallaşması təkcə Azərbaycan üçün deyil, Qərbin bir sıra aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Mərkəzi Asiya regionu ölkələri üçün strateji əhəmiyyət daşıyır. Saziş regionda digər qlobal layihələrin gerçəkləşməsinə yol açmaqla qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırmışdır."Əsrin

müqaviləsi" məhz bu prizmadan olduqca vacib hadisə hesab olunmalıdır. Çünkü müqavilə ölkəmizin beynəlxalq qurumlar ilə münasibətlərində də keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Müqavilənin əhəmiyyətindən bəhs edən Heydər Əliyev: *"biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin "Amoko", "BP", "Statoyl", "Lukoyl", "Mak Dermott", "Penzoyl", "Remko", "Türkiyə Petrolleri", "Yunokal", "Delta İnterneyşnl"in mənsub olduğu ölkələrlə - ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik"*- demişdi.[40] Bütün bunlarla yanaşı, qeyd edilən yarımfəsildə müasir dövrdə Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi "Əsrin müqaviləsi"nin birbaşa nəticəsi olması vurğulanır. Məhz bu neft müqaviləsi bütün dövlətlərin Azərbaycana inamını artırdı və sonradan dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə daha çox kapital qoymasına şərait yaratdı.

Dissertasiya işinin ikinci fəsli "**Heydər Əliyevin yeni neft strategiyasının ölkənin xarici siyasətinə təsiri**" adlanır. Fəslin **"Yeni neft strategiyası və onun regional tarazlığın qorunmasında əhəmiyyəti"** adlanan birinci yarımfəsili neft müqavilələri imzalandıqdan sonra Heydər Əliyevin rəhbərliyi nəticəsində regional tarazlığın qorunma siyasəti məsələlərinə həsr edilmişdir. Bu yarımfəsildə xüsusilə vurğulanır ki, Heydər Əliyev Rusiya və İran ilə siyasi münasibətlərin normallaşmasına çalışmışdır. Bu müddət ərzində Rusiyanın Azərbaycana qarşı olan münasibətində əsaslı dəyişikliklərin getdikcə artması da müşahidə olunmuşdur. Dövlətlərarası əməkdaşlığın dinamik inkişafında müəyyən dəyişikliklər əmələ gəlmişdir. Bu yarımfəsildə qeyd edilir ki, Rusiya Federasiyası 1992-ci ilin noyabrında Xəzərin ehtiyatlarının ona məxsusluğunu iddia edirdi

[40] Heydər Əliyevin neft strategiyası: Azərbaycan xalqının rifahı naminə: [2 cilddə] / – Bakı: Azərbaycan Respublikası prezidentinin Katibliyi. – 2001. – c.1. – s.15-17; Əliyev, H. Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yekun nitqi. Xəzər Şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə Xarici Neft Şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində // Azərbaycan. – 1994, 22 sentyabr. – s.3.

və 1994-cü ildə Azərbaycanın Qərb şirkətləri ilə imzaladığı neft müqaviləsini tanımırdı. Eyni zamanda Rusiya Federasiyası Xəzərdə Qərb şirkətləri ilə hər cür əməkdaşlığın yolverilməzliyini bildirirdi. Lakin 1996-cı il yanvarın 18-də Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanmış sazişdə artıq Rusiya mülkiyyət hüququnun neftin hasilatçısına, yəni Azərbaycana məxsus olduğunu etiraf edirdi. Heydər Əliyev Azərbaycan Respublikasının digər qonşuları ilə yanaşı "Əsrin müqaviləsi"ində heç bir pay ala bilməyən İranla da ikitərəfli münasibətləri səhmana salmaq üçün düşünülmüş fəaliyyət ortaya qoymuşdur.

İkinci fəsilin **"Xəzər neftinin nəqli ətrafında diplomatik-siyasi mübarizə və regionda geosiyasi fəallığın artması"** adlanan ikinci yarimfəsilində 90-cı illərin ortalarından başlayaraq Xəzər neftinin ixrac yolları ətrafında diskusiyaların güclənməsi və bunun neft kəmərlərinin Xəzəryanı bölgənin siyasətinə təsir göstərmək üçün ən səmərəli vasitə olmasından bəhs edilir. Bu vasitəni əldə etmək uğrunda mübarizə aparan tərəflər içərisində isə bölgə dövlətləri, ABŞ və Rusiya ilə yanaşı, İran, Türkiyə, Çin və Avropa mühüm yer tuturdu. Qeyd edilən yarımfəsildə vurğulanılır ki, Qafqaz regionunda qlobal və region güclər arasındakı rəqabətin əsas hədəfi regiondakı təqribən 200 milyard barrel neft və 18 trilyon kub metr təbii qazın hasilatında üstünlüyə sahib olmaqdır. Həmçinin də enerji daşınmasında tranzit ödənişlərdən faydalanmaq, enerji qiymətlərinə nəzarət etmək də bu hədəflər arasındadır.

Bütün bunlarla yanaşı bu yarımfəsildə Xəzər neftinin istismarı prosesində karbohidrogen ehtiyatlarının dünya bazarlarına ixracı ilə bağlı fərqli mövqelər və müxtəlif təkliflər elmi təhlillər süzgəcindən keçirilir. Burada Azərbaycan neftinin boru kəmərləri vasitəsilə daşınması istiqamətində nəzərdə tutulan Şimal marşrutu, Qərb marşrutu, Cənub-Qərb marşrutu və digər təklif olunan variantlar müqayisəli təhlil edilmişdir.

İkinci fəslin **"BTC-nin reallaşması və regionda geosiyasi situasiyanın dəyişməsi"** adlanan üçüncü yarımfəsilində BTC-nin regionun geosiyasi vəziyyətinə təsiri haqqında danışılır. Qeyd edilir ki, burada əsas istiqamətlər aşağıdakılardır: Azərbaycanın dünyaya inteqrasiyasının dərinləşdirilməsi; regional inteqrasiyanın

gücləndirilməsi, Mərkəzi Asiya ölkələrinin, ilk növbədə Qazaxıstanın və Türkmənistanın neft layihələrinə cəlb edilməsi; bölgədə, o cümlədən, Azərbaycanda ABŞ və Avropanın strateji maraqlarının təmin edilməsi və bu əsasda Rusiyanın mövqeyinin zəifləməsi; BTC layihəsini dəstəkləyən ABŞ-ın Azərbaycana böyük önəm verməsi; BTC-nin Azərbaycana yaxın gələcəkdə Avrasiya məkanın simasını Rusiya ilə bərabər müəyyənləşdirmək imkanı verməsi; BTC-nin Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasında əhəmiyyətli rol oynaması; Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi; Cənubi Qafqazın və Türkiyənin təhlükəsizliyinə təminat verilməsi.

Bütün bunlarla yanaşı, bu yarımfəsildə qeyd edilir ki, BTC boru kəməri kommersiya baxımından əlverişlidir. Bununla yanaşı BTC layihəsi iqtisadi layihə olmaqdan daha çox siyasi xarakter daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev vurğulayırdı ki: *"Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, eləcə də region dövlətlərinin siyasi müstəqilliklərinin qorunmasına, iqtisadi cəhətdən inkişafa nail olmasına, Avroatlantik məkana inteqrasiya olunmasına öz töhfəsini vermişdir. Həm region ölkələri, həm də fövqəl dövlətlər Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir transmilli enerji dəhliz və nəqliyyat kommunikasiya layihəsinin gerçəkləşdirilməsi imkanına şübhə ilə yanaşırlar."*[41] BTC-nin inşası və Azərbaycan neftinin Qərbə ixracı nəticəsində 140 mlrd. dollar gəlir əldə ediləcəyi və ölkəyə daxil olacaq birbaşa investisiyaların həcminin 150 mlrd. dollar olacağı hesablanmışdı.[42]

Dissertasiya işinin üçüncü fəsli **"Ümumavropa məkanına inteqrasiya və Azərbaycanın geosiyasi maraqlarının təmin edilməsi neft strategiyasının başlıca hədəfləri kimi"** adlanır. Fəsli əhatə edən problemlər üç yarımfəsildə əksini tapmışdır. **"Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi Heydər Əliyevin neft strategiyasının mühüm vəzifəsidir"** adlanan birinci yarımfəsildə Xəzərin hüquqi statusuna dair müzakirələrin uzun və

---

[41] Bakıda IV Enerji Sammiti keçirilib // Azərbaycan. – 2008, 15 noyabr. – s.1.
[42] Bakı-Tbilisi-Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi / – Bakı: Mərkəzi Asiya-Qafqaz İnstitutu-İpək Yolu Araşdırmalar proqramı, 2006. – s.73.

əsasən nəticəsiz davam etməsinin səbəbləri təhlil edilir. Həmçinin vurğulanılır ki, Rusiya, Qazaxıstan və Azərbaycan arasında ikitərəfli və üçtərəfli müqavilələr mövcud olsa da, problem uzun illər Türkmənistan və İranla razılığın əldə edilməməsi ucbatından nizamlanmamış qalırdı. Status məsələsi ilə bağlı aparılmış diplomatik-siyasi danışıqların təhlili və təcrübəsinə əsasən qeyd etmək olar ki, hazırda Xəzərdə söz sahibi təkcə Rusiya deyildir. Həmçinin onun sərvətlərindən sülh və əməkdaşlıq şəraitində istifadə edilməsini bir vəzifə kimi qarşıya qoyan Azərbaycan tərəfi də vardır.

Qeyd edilən yarımfəsildə Xəzərin hüquqi statusu problemi Azərbaycanın neft strategiyasının həyata keçirilməsinə mane olmaq üçün ortaya atılması fikri əsaslandırılmışdır. "Əsrin müqaviləsi"nin 5-ci ildönümü münasibəti ilə "Respublika" sarayında çıxış edən ARDNŞ-in 1-ci vitse-prezidenti İlham Əliyevin məruzəsində: *"Danışıqlar tarixindən diqqətə layiq və çox az adamın bildiyi bir faktı gətirmək istəyirəm. Xəzər dənizi statusunun həll edilməsi problemi o qədər kəskin qoyulmuşdur ki, Azərbaycana təsir o qədər güclü idi ki, bütün bunlar "Biz yol verməri̇k" kimi müxtəlif diplomatik notlar və bəyanatlarla müşahidə olunurdu. Xarici neft şirtkətləri bu tezisi müqavilə şərtlərinə daxil etdilər, yəni müqavilə Xəzər dənizinin statusu problemi həll edildikdən sonra qüvvəyə minəcəkdir. Bu faktiki olaraq o deməkdir ki, müqavilə imzalanacaq, lakin qüvvəyə minməyəcəkdir."*[43] Hadisələrin yekununa əsasən söyləyə bilərik ki, Heydər Əliyevin həyata keçirdiyi enerji strategiyası Xəzərin statusu məsələsinin həllinə təsir etmiş və bu məsələdə də Azərbaycan Respublikasının söz sahibi kimi hüququnu ön plana çəkmişdir.

Üçüncü fəslin **"Yeni neft strategiyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin nizamlanması prosesinə təsiri"** adlanan ikinci yarımfəsilində Azərbaycan Respublikasının təhlükəsizlik və neft strategiyasında əsas məqsədləri nəzərdən keçirilir. Bu yarımfəsildə qeyd edilir ki, Heydər Əliyev neft amilindən istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həlli üçün

---

[43] Əliyev, İ. Müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası uğurla həyata keçirilir. ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin məruzəsi // – Bakı: İqtisadiyyat və həyat, – 1999. № 7-9, – s.15.

dünyanın aparıcı dövlətləri ilə balanslaşdırılmış siyasət yürütməyə nail olmuşdur. Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi ABŞ, Avropa, Rusiya, İran, Türkiyə, Çin və digər dövlətlərin Qafqazda sabitliyin qorunmasında maraqlı olmasına səbəb olmuşdu. BTC-nin inşa edilməsi nəticəsində Qərb kapitalının Azərbaycana axını baş vermişdir. Bu isə ABŞ və Qərb dövlətlərinin regionda təhlükəsizliyin təmin edilməsi məsələsində fəal mövqe nümayiş etdirməsinə səbəb olmuşdur. Aydındır ki, regionda təhlükəsizliyin təminatı ABŞ və Qərb dövlətlərinin Azərbaycanın təbii sərvətlərinə yatırdıqları kapitalın təhlükəsizliyi ilə bilavasitə bağlıdır. Qeyd edilən bu yarımfəsildə dünyanın aparıcı dövlətlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh prosesinə maraqlarının artması fikri əsaslandırılmışdır. Bütün bu deyilənlərdən əlavə, əsaslı şəkildə göstərilir ki, Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin komandanlığı ilə aparılmış 44 günlük müharibə və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi bütün dünyaya yeni neft strategiyasının düzgün şəkildə həyata keçirilməsini sübut etdi. Qeyd edilir ki, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın düşmən tapdağından azad edilməsinin təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır.

Üçüncü fəslin **"Neft siyasəti və Azərbaycanın dünya birliyinə inteqrasiyası"** adlanan üçüncü yarımfəsilində Azərbaycanın xarici aləmlə səmərəli əməkdaşlığı, dünya siyasətinə təsir gücü olan beynəlxalq və regional qurumlarla tərəfdaşlıq münasibətləri, ölkənin nüfuzlu xarici alyanslarda iştirakı məsələləri təhlil edilmişdir. İqtisadiyyatın qloballaşdığı yeni minillikdə Azərbaycanın universal və qlobal iqtisadi sistemə uğurla inteqrasiya olunmasının təməlində Heydər Əliyenin neft strategiyasının durduğu əsaslandırılmışdır. Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər maliyyə-iqtisadi qurumları ilə hərtərəfli əməkdaşlıq və s. kimi məsələlər qeyd edilən yarımfəsildə işiqlandırılmışdır. Şübhəsiz ki, Azərbaycan dövlətinin dünya birliyinə inteqrasiyası sahəsində tarixi uğurların qazanılması Heydər Əliyevin adı ilə bağlıdır. Yekun olaraq bildirilir ki, neft

strategiyasının öyrənilməsi hələ çox saylı elmi tədqiqatların mövzusu kimi aktuallığını itirməyəcəkdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Heydər Əliyevin neft strategiyasının ümumi konsepsiyası// – Bakı: Tarix və onun problemləri, – 2015. №3, – s.45-51.
2. "Əsrin Müqaviləsi" və onun gələcəyi // – Gəncə, Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, Humanitar və təbiət Elmləri seriyası. – 2016. №1, – səh.192-195.
3. İnternational aspects of Heydar Aliyevs oil strategy AR // – Bakı: Gənclər və İdman Nazirliyi. Gənc alimlərin əsərləri. – 2016. №13, – s.142-148.
4. Azərbaycan nefti uğrunda dünyanın güc mərkəzlərinin geosiyasi maraqları// – Gəncə, Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, Humanitar və təbiət Elmləri seriyası. – 2016. № 3, – s.299-302.
5. İnfluence of Heydar Aliyevs oil strategy on Azerbaijans İntegration into World Community//-Телавский Государственный Университет имени Якова Гогебашвили.Сборник научных трудов. – 2017. №1(30), – s.54-58.
6. ABŞ-Azərbaycan strateji-tərəfdaşlıq əlaqələri: Heydər Əliyevin Yeni Neft strategiyası kontekstində // – Bakı: Bakı Slavyan Universiteti, Elmi Əsərlər, İctimai-siyasi elmlər seriyası. – 2018. №1, – s.34-41.
7. Сотрудничество с Казахстаном и Туркменистаном в области экспорта энергоносителей // – Алматы: Казахский Национальный Педагогический Университет им.Абая. Вестник. – 2019. №1(60), – с.222-227.
8. Azərbaycan Respublikasının neft kəmərləri layihələrinin reallaşdırılmasında Rusiyanın mövqeyi // – Naxçıvan: Naxçıvan

Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası. – 2019. № 2(99), – s.137-141.
9. Heydər Əliyevin neft strategiyasının formalaşması və neftin nəqli ilə bağlı geosiyasi problemlərin həlli // – Bakı: AMEA Tarix İnstitutunun Elmi əsərləri. – 2019. № 78, – s.168-181.
10. Геополитические интересы мировых центров сил за Азербайджанскую нефть // Odessa National Economic University ALL-Ukrainian Association of young scientists, Scientific Bulletin Odessa, – 2019. № 3(266), – pp.202-214.
11. Нефтяная стратегия Гайдара Алиева и кавказская политика Турции // – Москва: Современная научная мысль, Научный журнал АНО Научно-исследовательский институт истории, экономики и права. – 2020. №1, – с.137-142.
12. Cənubi Qafqazın enerji təhlükəsizliyində Heydər Əliyevin rolu // GDU. Qafqaz Tarixinin aktual məsələləri. Beynəlxalq konfransın materialları, II hissə, – Gəncə, – 15-16 oktyabr, – 2015, – s. 201-204.
13. Heydər Əliyevin neft strategiyasının uğurları // Qafqaz Universiteti, Gənc Tədqiqatçıların IV Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 29-30 aprel, – 2016, – s.1727-1728.
14. Azərbaycanın neft sənayesində xarici kapitalın rolu // GDU. Gənc alimlərin I Beynəlxalq Elmi konfransın materialları, I hissə. – Gəncə, – 17-18 oktyabr, – 2016, – s.178-181.
15. Heydər Əliyevin neft strategiyasının Azərbaycanın dünya birliyinə inteqrasiyasına təsiri // ARTN, Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları, I cild. – Bakı, – 22-23 noyabr, – 2018, – s.157-159.
16. Влияние нефте-провода Баку-Тбилиси-Джейхан на геополитическую локацию в регионе Южного Кавказа // Proceeding of the İnternational Scientific Conference Security in Contemporary World Dnipro, – Ukraine, – 27-28 Sentyabr, – 2019, –s.39-42.

Dissertasiyanın müdafiəsi 29 dekabr 2023-cü il tarixində saat 13⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED. 130 saylı Dissertasiya şurasının iclasında keçiriləcək

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid pr., 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir

Avtoreferat 27. noyabr 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb:25.11.2023

Kağızın formatı:A5

Həcm: 43461

Tiraj:100